# Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına dəyişikliklər və əlavələr edilməsi və bəzi fərmanlarının qüvvədən düşmüş hesab edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

1. «İnhisarçı müəssisələrin və birliklərin məhsullarının (xidmətlərinin) qiymətlərinin (tariflərinin) dövlət tərəfindən tənzimlənməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 24 dekabr tarixli, 377 nömrəli Fərmanının (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 24, maddə 1083; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 10, maddə 640) 2-ci bəndinin birinci abzası çıxarılsın.

2. «Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 5 aprel tarixli, 125 nömrəli Fərmanının (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994-cü il, № 7, maddə 71; Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 17 dekabr tarixli, 520 nömrəli Fərmanı) 6-cı bəndinin beşinci və altıncı abzasları çıxarılsın.

3. «Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında» Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 15 iyun tarixli, 152 nömrəli Fərmanının (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994-cü il, № 11, maddə 130, № 20, maddə 308) 3-cü bəndinin ikinci abzası çıxarılsın.

4. «Yanğın təhlükəsizliyi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli, 619 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 5, maddə 416; 2004-cü il, № 6, maddə 437; 2005-ci il, № 4, maddə 303) 2-ci bəndinə aşağıdakı məzmunda onuncu abzas əlavə edilsin:

*«Yanğın təhlükəsizliyi haqqında» Azərbaycan Respublikası Qanununun 22-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirir.».*

5. «Azərbaycan Respublikası Gömrük Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli, 616 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 6, maddə 448; 2001-ci il, № 10, maddə 640; 2004-cü il, № 7, maddə 526; 2005-ci il, № 2, maddə 69) aşağıdakı dəyişikliklər və əlavə edilsin:

5.1. 2-ci bəndin üçüncü abzasından *«120-ci maddəsinin 6-cı hissəsində,»* və *«160-cı maddəsinin 1-ci hissəsində,»* sözləri, altıncı abzasından isə *«113, 114-cü maddələrində,»* sözləri çıxarılsın;

5.2. 2-ci bəndə aşağıdakı məzmunda onuncu abzas əlavə edilsin:

*«Gömrük Məcəlləsinin 113-cü, 114-cü maddələrində, 120-ci maddəsinin 6-cı hissəsində və 160-cı maddəsinin birinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirir.».*

6. «Antiinhisar fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununda dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 2 dekabr tarixli, 647 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 6, maddə 503; 2001-ci il, № 10, maddə 640) aşağıdakı dəyişiklik və əlavə edilsin:

6.1. 2-ci bəndin üçüncü abzasından *«14-cü,»* rəqəmi çıxarılsın;

6.2. 2-ci bəndə aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

*«həmin Qanunun 14-cü maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası öz səlahiyyətləri daxilində həyata keçirirlər.».*

7. «Azərbaycan Respublikasının 1997-ci il 30 dekabr tarixli, Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Meşə Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli, 693 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 3, maddə 177; 2003-cü il, № 10, maddə 546; 2004-cü il, № 12, maddə 1005) aşağıdakı dəyişiklik və əlavə edilsin:

7.1. 2-ci bəndin üçüncü abzasından *«doqquzuncu,»* sözü çıxarılsın;

7.2. 2-ci bəndə aşağıdakı məzmunda onuncu abzas əlavə edilsin:

*«həmin Məcəllənin 27-ci maddəsinin birinci hissəsinin doqquzuncu abzasında nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası öz səlahiyyətləri daxilində həyata keçirirlər.».*

8. «Yerin təki haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 27 aprel tarixli, 701 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 4, maddə 247; 2003-cü il, № 10, maddə 546) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 1-ci bəndin otuz ikinci abzasından *«və miqdarını»* sözləri çıxarılsın;

8.2. 2-ci bəndin on yeddinci abzasında *«həyata keçirir»* sözləri *«və Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası öz səlahiyyətləri daxilində həyata keçirirlər»* sözləri ilə əvəz edilsin.

9. «Elektroenergetika haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli, 723 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 6, maddə 384; 2003-cü il, № 10, maddə 582) aşağıdakı dəyişikliklər edilsin:

9.1. 2-ci bəndin altıncı abzasında *«Azərbaycan Respublikasının Yanacaq və Energetika Nazirliyi və Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi öz səlahiyyətləri daxilində həyata keçirirlər»* sözləri *«Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirir»* sözləri ilə əvəz edilsin;

9.2. həmin bəndin səkkizinci abzasında *«birgə razılaşdıraraq həyata keçirirlər»* sözləri *«birgə razılaşdırır, Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası isə həyata keçirir»* sözləri ilə əvəz edilsin.

10. «Geodeziya və kartoqrafiya haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyul tarixli, 738 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 7, maddə 448; 2001-ci il, № 12, maddə 755; 2004-cü il, № 1, maddə 19) aşağıdakı dəyişikliklər və əlavə edilsin:

10.1. 1-ci bəndin on üçüncü abzasından *«dərəcələrini və»* sözləri çıxarılsın;

10.2. 2-ci bəndin üçüncü abzasında *«,26-cı maddəsinin beşinci hissəsində və 28-ci maddəsinin ikinci hissəsində»* sözləri *«və 26-cı maddəsinin beşinci hissəsində»* sözləri ilə əvəz edilsin;

10.3. 2-ci bəndə aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

*«həmin Qanunun 28-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası öz səlahiyyətləri daxilində həyata keçirirlər.».*

11. «Hidrometeorologiya fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli, 747 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 8, maddə 497; 2003-cü il, № 10, maddələr 546, 571) aşağıdakı dəyişiklik və əlavə edilsin:

11.1. 2-ci bəndin dördüncü abzasından *«və 24-cü maddəsinin üçüncü hissəsində»* sözləri çıxarılsın;

11.2. 2-ci bəndə aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

*«həmin Qanunun 24-cü maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası öz səlahiyyətləri daxilində həyata keçirirlər.».*

12. «Qaz təchizatı haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli, 773 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, №

9, maddə 576; 2001-ci il, № 10, maddə 640; 2003-cü il, № 10, maddə 585; 2004-cü il, № 7, maddə 526) 2-ci bəndinin üçüncü abzasında *«orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi həyata keçirirlər»* sözləri *«orqanı»nın səlahiyyətlərini Tarif (qiymət) Şurası həyata keçirir»* sözləri ilə əvəz edilsin.

13. «İstehsalat və məişət tullantıları haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 oktyabr tarixli, 3 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 10, maddə 611; 2003-cü il, № 10, maddə 546) aşağıdakı dəyişiklik və əlavə edilsin:

13.1. 2-ci bəndin ikinci abzasından *«18-ci maddəsinin dördüncü hissəsində,»* sözləri çıxarılsın;

13.2. 2-ci bəndə aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

*«həmin Qanunun 18-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası öz səlahiyyətləri daxilində həyata keçirirlər.».*

14. «Energetika haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 1 fevral tarixli, 85 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 2, maddə 69; 2003-cü il, № 10, maddə 582) 2-ci bəndinin yeddinci abzasında *«və Azərbaycan Respublikasının Yanacaq və Energetika Nazirliyi birgə razılaşdıraraq»* sözləri *«,Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası öz səlahiyyətləri daxilində»* sözləri ilə əvəz edilsin.

15. «Kitabxana işi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli, 115 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 3, maddə 167; 2002-ci il, № 8, maddə 482; 2006-cı il, № 9, maddə 743) 2-ci bəndinə aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

*«həmin Qanunun 28-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirir.».*

16. «Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 21 oktyabr tarixli, 409 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 10, maddə 724) 2-ci bəndinin dördüncü abzasında *«17.1-ci»* sözlərindən sonra *«(birinci halda)»* sözləri əlavə edilsin, həmin bəndə aşağıdakı məzmunda beşinci abzas əlavə edilsin:

*«həmin Qanunun 17.1-ci maddəsində (ikinci halda) nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirir.».*

17. «Təbii inhisarlar haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq olunmasını təmin edən əlavə tədbirlər barədə» Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 2

mart tarixli, 446 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 3, maddə 154, № 10, maddə 640) üçüncü abzasında *«Maliyyə Nazirliyi»* sözlərindən sonra *«və Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası»* sözləri əlavə edilsin.

18. «Reklam haqqında» Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinə dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 8 may tarixli, 482 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 5, maddə 301) 2-ci bəndində *«Nazirlər Kabineti həyata keçirir»* sözləri *«Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası öz səlahiyyətləri daxilində həyata keçirirlər»* sözləri ilə əvəz edilsin.

19. «Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli, 541 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 7, maddə 478; 2005-ci il, № 2, maddə 69; 2006-cı il, № 12, maddə 1053) 2-ci bəndinə aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

*«həmin Məcəllənin 28.4-cü maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirir;».*

20. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 10 iyun tarixli, 880 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 6, maddə 286) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi haqqında Əsasnamə»nin 9.18-ci bəndindən *«daşımaların baza tariflərini müəyyən edir,»* sözləri çıxarılsın.

21. «Feldyeger rabitəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli, 903 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 8, maddə 432) aşağıdakı dəyişiklik və əlavə edilsin:

21.1. 2-ci bəndin üçüncü abzasından *«11.3-cü,»* sözü çıxarılsın;

21.2. 2-ci bəndə aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

*«həmin Qanunun 11.3-cü maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirir.».*

22. «Poçt rabitəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 31 avqust tarixli, 115 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 8, maddə 623) aşağıdakı məzmunda 3.6-cı bənd əlavə edilsin:

*«3.6. həmin Qanunun 11.2-ci maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirir.».*

23. «İctimai televiziya və radio yayımı haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 5 noyabr tarixli, 141 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 11, maddə 905) aşağıdakı məzmunda 3.3-cü bənd əlavə edilsin:

*«3.3. həmin Qanunun 23.5-ci maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirir.».*

24. «Meliorasiya və irriqasiya haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikası Qanununun icrası ilə əlaqədar əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli, 165 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 12, maddə 1011) aşağıdakı dəyişiklik və əlavə edilsin:

24.1. 1-ci bənddə *«və yeddinci hissəsinin birinci cümləsində (birinci halda)»* sözləri çıxarılsın;

24.2. 1-ci bəndə aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

*«həmin Qanunun 25-ci maddəsinin yeddinci hissəsinin birinci cümləsində (birinci halda) nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirir.».*

25. «Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli, 169 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 12, maddə 1015; 2005-ci il, № 12, maddə 1099) aşağıdakı dəyişiklik və əlavə edilsin:

25.1. 2.1-ci bənd çıxarılsın;

25.2. aşağıdakı məzmunda 2.6-cı bənd əlavə edilsin:

*«2.6. həmin Məcəllənin 14.10-cu maddəsində (hər iki halda) nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirir.».*

26. «Telekommunikasiya haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli, 277 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 8, maddə 709; 2006-cı il, № 5, maddə 404; № 11, maddə 947) aşağıdakı məzmunda 2.10-cu bənd əlavə edilsin:

*«2.10. həmin Qanunun 10.1-ci maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirir.».*

27. «Qiymətlərin və tariflərin liberallaşdırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 2 yanvar tarixli, 540 nömrəli Fərmanı (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 1, maddə 15) qüvvədən düşmüş hesab edilsin.

28. «Çörəyin pərakəndə satış qiymətlərinin aşağı salınması haqqında» Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 18 yanvar tarixli, 552 nömrəli Fərmanı (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 3, maddə 54) qüvvədən düşmüş hesab edilsin.

29. Bu fərman dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 14 iyun 2007-ci il***

***№ 588***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (17 iyun 2007-ci il, № 131) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (30 iyun 2007-ci il, № 6, maddə 601) («VneshExpertService» LLC).***

*© VneshExpertService LLC*